

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 7 (23.649)

13 yanvar 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ötən ilin yekunları müzakirə olunub, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasından irəli gələn vəzifələr müəyyənləşdirilib



2020-ci il 30 dekabr tarixdə keçirilmiş altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasından irəli gələn vəzifələrə dair Naxçıvan Muxtar Respublikası Prokurorluğunda keçirilən kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq məruzə edib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət olunması məqsədilə 2020-ci ildə prokurorluğun mərkəzi aparatının və rayon (şəhər) prokurorluqlarının əməliyyat işçiləri bu işə cəlb edilib və müvafiq orqanlarla əlaqəli şəkildə bu sahədə tədbirlər mütəmadi olaraq davam etdirilib. Həmçinin Ali Məclis Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının tələbələri hesabat dövründə Naxçıvan Muxtar Respublikası Prokurorluğuna olublar. Keçirilən görüşdə tələbələrə startap layihələri və istintaq hərəkətlərinin aparılmasına aid slaydlar nümayiş etdirilib, həmçinin kitabxana fondu, prokurorluq orqanlarında müraciətlərə baxılması, ittihamı elanetmə qaydaları və ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında məlumatlar verilib.

Vurğulanıb ki, ötən il peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı muxtar respublika ərazisində cinayət hadisəsi qeydə alınmayıb, prokurorlar tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinə müvafiq izahlar verilməklə qanuni tədbirlər görülüb.

Diqqətə çatdırılıb ki, vətəndaşların sağlam hüquqi düşüncəyə və yüksək hüquq mədəniyyətinə malik olmaları üçün hüququn təbliği işi yüksək səviyyədə təşkil olunmalı və hüquqi dövlət quruculuğunun vacib elementi kimi qəbul edilməlidir. Bu səbəbdən hüququn təbliği və qanunvericiliyin izahı cinayətkarlığın qarşısının alınmasında ən mühüm vasitə kimi nəzərdən keçirilməlidir. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi bundan sonra da fəal vətəndaşlıq mövqeyi nümayiş etdirəcək, öz qüvvələrini səfərbərliyə almaqla digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunmasını təmin edəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



*Yanvarın 12-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində keçirilən kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, baş ədliyyə müşaviri Daşqın Rəhimov açıb.*

Bildirib ki, hesabat dövrü ərzində verilmiş qərarların vaxtında icra olunmasına nəzarət xeyli artırılıb. İcra və probasiya şöbəsinin əməkdaşlarından ibarət işçi qrup hesabat dövrü ərzində vaxtında icra olunmasına köməklik göstərmək məqsədilə Naxçıvan şəhər, Şərur və Sədərək rayonları üzrə icra və probasiya qurumlarında olan işlərə cəlb ediliblər. İl ərzində icra və probasiya şöbə və bölmələrinin icraatına 3956 icra sənədi daxil olub, bunlardan 1691 iş tam icra edilib, 1834 iş icraya yönəlib, 237-si geri qaytarılıb, 190 iş ərazi aidiyyəti üzrə göndərilib, 4 işin icraatı dayandırılıb. Ötən illərdən icrası davam etdirilən 2016 iş tam yerinə yetirilib. İcra işləri üzrə 204 borclunun ölkədən getmək hüququ müvəqqəti olaraq məhdudlaşdırılıb, 151 borclunun üzərinə qoyulmuş məhdudiyyət götürülüb. Davam etdirilən icra işləri üzrə 66 borclu barəsində axtarış qərarı verilib, aliment və pul tələbi ilə bağlı icra işləri üzrə 32 nəfər borclu inzibati qaydada həbs edilib. İcradan qəsdən yayınan 59 borclu ilə profilaktik söhbətlər aparılıb, onlara icra sənədi üzrə tələbin qərəzli olaraq icra edilməməsi və ya tələbin icrasına maneçilik törətmənin yaratdığı inzibati və cinayət məsuliyyəti barədə məlumat verilib.

Daşqın Rəhimov nazirliyin həyata keçirdiyi digər tədbirlərdən danışıb, görülmüş işlərlə yanaşı, ədliyyə fəaliyyətində yol verilmiş nöqsan və çatışmazlıqlar müzakirə edilib, ədliyyə qulluqçuları qarşısında qoyulan tələblər, xüsusilə vətəndaşlara qayğılı münasibət göstərilməsi, qanunun tələblərinə ciddi əməl olunması, şəffaflığın artırılması ilə bağlı tapşırıqlar diqqətə çatdırılaraq nizam-intizama, etik davranış qaydalarına dönmədən riayət edilməsi, vətəndaş məmnunluğunun yüksəldilməsinin vacibliyi vurğulanıb. Nazir qeyd edib ki, Ali Məclis Sədrinin icra, ekspertiza və bələdiyyə fəaliyyəti ilə bağlı verdiyi tapşırıqların icrası davam etdirilməli, nazirliyin bütün xidmət sahələri işə diqqəti daha da artırmalı, hüquqi maarifləndirmə və profilaktika işləri daha keyfiyyətlə aparılmalıdır.

Sonda məruzə ətrafında çıxışlar olub.

* * *

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində 2020-ci ildə görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilib.*

İclası giriş sözü ilə açan nazir Tapdıq Əliyev bildirib ki, ötən 2020-ci ildə makroiqtisadi sabitliyin qorunması, innovativ əsaslı iqtisadiyyatın inkişafının təmin edilməsi, özəl sektorun stimullaşdırılması, yüksək əlavə dəyər yaradan və ixraca yönələn məhsul istehsalının genişləndirilməsi, ən başlıcası isə qazanılan nailiyyətlərin vətəndaşların rifahının daha da yaxşılaşdırılmasına yönəldilməsi muxtar respublika iqtisadiyyatının dinamik inkişafını təmin edib.

Sənayeləşmə sahəsindəki uğurlardan bəhs edən nazir vurğulayıb ki, 2020-ci ildə yüksək standartlara cavab verən müəssisələrin yaradılması, həmçinin sahibkarlığın inkişafının stimullaşdırılması diqqət mərkəzində saxlanılıb, sahibkarlıq subyektləri tərəfindən 153 layihə dövlət maliyyə dəstəyi və 16 layihə özəl investisiya olmaqla, 169 istehsal və xidmət sahəsi istifadəyə verilib, 772 yeni iş yeri açılıb. 33 layihənin icrası, sahibkarlara güzəştli kreditlərin verilməsi davam etdirilib. Bəhs olunan dövrdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 142 layihənin maliyyələşdirilməsinə 15 milyon 577 min manat məbləğində güzəştli kreditlər ayrılıb. Bu kreditlər sənayenin, kənd təsərrüfatının inkişafına, xidmət sahələrinin yaradılmasına yönəldilib.

Diqqətə çatdırılıb ki, fermerlərin kənd təsərrüfatı məhsullarını uzun müddət saxlamaları, əhalinin tərəvəz məhsulları ilə fasiləsiz təminatı üçün 2020-ci ildə dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına 4 soyuducu anbarın yaradılması, 1 soyuducu anbarın genişləndirilməsi, 1 soyuducu anbarda avadanlıqların quraşdırılması başa çatdırılıb, 2 soyuducu anbarın yaradılması davam etdirilib. Bundan əlavə, 9 istixana təsərrüfatının, 1 göbələk istehsal sahəsinin yaradılması, 1 istixana təsərrüfatının genişləndirilməsi, 1 istixana təsərrüfatının fəaliyyətinin bərpası, 1 istixana təsərrüfatında istilik sistemlərinin quraşdırılması başa çatdırılıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2020-ci il 12 avqust tarixdə 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə qarşıya qoyulan vəzifələrə uyğun olaraq əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatını təmin etmək məqsədilə 2020-ci ildə 1417 tonu “Naxçıvan Meyvə-Tərəvəz Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən olmaqla, soyuducu anbarlara, ümumilikdə, 8700 ton meyvə-tərəvəz



məhsullarının tədarükünün həyata keçirilməsi, istixana təsərrüfatlarında 684 ton tərəvəz məhsullarının yetişdirilərək bazarlara çıxarılması istehsalçıların fəaliyyətinin stimullaşdırılmasına və qiymətlərin tənzimlənməsinə şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə 2020-ci ilin “İxrac ili” elan olunması muxtar respublikanın sosial-iqtisadi imkanlarını daha da genişləndirib. Ötən il dövlət dəstəyi ilə ölkə daxilində və xaricdə keçirilən 7-si onlayn olmaqla, 10 beynəlxalq tədbirdə 14 sahibkarlıq subyektinin 27 nümayəndəsinin iştirakı təmin edilib.

Muxtar respublikada fəaliyyət göstərən ixrac potensiallı müəssislərdə istehsal edilən bir neçə adda məhsul 12-dən çox ölkəyə ixrac olunub, həmin məhsulların ixracını asanlaşdırmaq məqsədilə Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən 127 halda mənşə sertifikatının verilməsi təmin edilib.

Vurğulanıb ki, 2020-ci ildə mövcud çətinliklərə baxmayaraq, muxtar respublika iqtisadiyyatı öz dinamik inkişafını davam etdirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlar üçün yaratdığı əlverişli mühit, iqtisadi sahədə qəbul olunmuş Dövlət proqramlarının uğurlu icrası iqtisadiyyatın inkişafına öz töhfəsini verməkdədir. Muxtar respublikanın brendi olan Naxçıvan duzuna xüsusi diqqət göstərilməsi, Duzdağda yeni şaxtanın və müasir standartlara cavab verən yeni müəssisənin tikintisi, həmçinin Şərur Sənaye Məhəlləsinin tikintisi və bunlardan başqa da davam edən bir sıra layihələr İqtisadiyyat Nazirliyinin qarşısında cari ildə də yeni vəzifələr, yeni məqsədlər qoyur. 2021-ci ildə ixrac potensiallı müəssisələrin fəaliyyətləri daha diqqətdə saxlanılmalı, tələbatı yerli istehsal hesabına ödəməklə yanaşı, yerli xammala əsaslanan müəssisələrin qurulmasına üstünlük verilməlidir. Ailə təsərrüfatlarının fəaliyyəti genişləndirilməli, daxili bazarda süni qiymət artımına yol verməmək, əhalinin keyfiyyətli məhsullarla təmin edilməsinə nəzarət olunmalıdır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən müşavirəni İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov açaraq məruzə edib. Bildirib ki, ötən ilin 11 ayı ərzində Naxçıvan şəhərində iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çox vəsait yönəldilib. Əsas kapitala qoyulan vəsaitin həcminin ilbəil artması Naxçıvan şəhərinin quruculuq xəritəsini xeyli genişləndirib, yeni yaşayış kompleksləri, istehsal, mədəniyyət və turizm müəssisələri tikilərək istifadəyə verilib. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 2,3 faiz artıb. 2020-ci ildə Naxçıvan şəhərində “Gənclər Yaşayış Kompleksi”, “Naxtel” Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni binası, Sahil Parkı, “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyəti üçün yeni kompleks, 10 yaşayış binası, 39 müxtəlif təyinatlı obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, “ASAN xidmət” mərkəzi, 400 yerlik avtomobil parkı, tələbə yataqxanası, Kimya-Biologiya Təmayüllü Lisey, uşaq bağçası, Naxçıvançay sahilində istinad divarı, 6 yaşayış binası, 48 müxtəlif təyinatlı obyektin tikintisi və ya yenidən qurulması davam etdirilib. Yusif Küseyir oğlu türbəsinin bərpası, buxzananın yenidən qurulması başa çatdırılıb, məscidin tikintisi davam etdirilib.

Qeyd olunub ki, 2020-ci ilin 11 ayı ərzində Naxçıvan şəhərində 16 yeni istehsal və xidmət obyekti yaradılıb, 15 yeni istehsal və xidmət obyektinin yaradılması davam etdirilib. Müvafiq dövrdə 705 milyon 506 min manat həcmində sənaye məhsulu istehsal olunub ki, bu da əvvəlki ilin həmin dövrü ilə müqayisədə 1,5 faiz çox sənaye məhsulu deməkdir. 2020-ci ilin yanvar-oktyabr aylarında Naxçıvan şəhərində sənaye sahəsi üzrə 7 min 410 nəfər, tikinti sahəsi üzrə 8 min 850 nəfər çalışıb ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çoxdur. Həmin dövrdə 724 yeni iş



yeri yaradılıb. Ərzaq təhlükəsizliyinin təmin olunmasında və aqrar-sənaye müəssisələrinin xammalla təchizatında kənd təsərrüfatı mühüm əhəmiyyət kəsb edir. Məhsul istehsalçılarına əlverişli şəraitin yaradılması kənd təsərrüfatı məhsullarının istehsal həcmini artırıb, 1 dekabr 2020-ci il tarixə Naxçıvan şəhərində 3 min 584 ton tərəvəz, 1072 ton meyvə, 375 ton kartof, 119 ton üzüm, 2 min 264 ton bostan məhsulları tədarük olunub. 727 hektar sahədə payız əkini üçün şum qaldırılıb, 484 hektar sahədə payızlıq səpin aparılıb. Müvafiq dövrdə dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 3 min 86 ton məhsul yığılıb, məhsuldarlıq orta hesabla 29,2 sentner olub.

Vurğulanıb ki, əhalinin sağlamlığının təmin olunması və yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yanğınsöndürmə avtomobilləri və şəxsi heyəti tərəfindən Naxçıvan şəhərində 25 milyon 663 min kvadratmetr ərazidə xüsusi məhlulla dezinfeksiya işləri aparılıb. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Diqqətə çatdırılıb ki, 2021-ci ildə də idarə, müəssisə və təşkilatlarda əmək intizamına əməl olunması üçün tələbkarlıq artırılmalı, ərazinin təmiz saxlanılması, ekoloji tarazlığın qorunmasına ciddi nəzarət edilməlidir. Naxçıvan Şəhər İcra Hakimiyyəti və onun tabeli təşkilatları qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməli, Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafına öz layiqli töhfələrini verməlidirlər.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Ötən ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində keçirilən iclası nazir Bəhruz Bayramov açaraq bildirib ki, qəbul edilmiş Dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrası, məhsul istehsalçılarına güzəştli kreditlərin verilməsi, meliorasiya və irriqasiya tədbirlərinin gücləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, taxıl və soyuducu anbarların həcminin artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması muxtar respublikada kənd təsərrüfatının dinamik inkişafına səbəb olub.

Bildirilib ki, muxtar respublikada əkinəyararlı torpaq sahələrinin səmərəli istifadəsi daim diqqətdə saxlanılır, torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizmi mütəmadi olaraq təkmilləşdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı" təsdiq edilib. Qeyd olunub ki, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı üzrə ardıcıl tədbirlər həyata keçirilir. 2020-ci ilin məhsulu üçün 63405 hektar sahədə əkin aparılıb. Taxılçılığın strateji əhəmiyyətə malik olması diqqət mərkəzində saxlanılıb, 2020-ci ilin məhsulu üçün 36879 hektar sahədə taxıl əkini aparılmışdır ki, bunun da 36099 hektarı payızlıq, 780 hektarı isə yazlıq taxıl idi. Taxıl əkinlərinin 26293 hektarı buğda, 10586 hektarı isə arpa əkini olub. Kənd təsərrüfatında aparılan iqtisadi islahatlar artıq bir neçə ildir ki, əhalinin əksər kənd təsərrüfatı məhsullarına olan tələbatının daxili istehsal hesabına ödənilməsini təmin edib.

Diqqətə çatdırılıb ki, muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində tədbirlər həyata keçirilir, istehsalın genişləndirilməsi, əhalinin məşğulluğunun artırılması, ailə biznesinin qurulması diqqətdə saxlanılır. Hazırda muxtar respublikada 45 mindən çox ailə təsərrüfatı mövcuddur ki, bunun da 1 oktyabr 2020-ci il tarixə 1040 ixtisaslaşmış kiçik və böyük ailə təsərrüfatlarıdır.

Qeyd olunub ki, hazırda muxtar respublikada 5333,8 hektar sahədə meyvə bağları mövcuddur. Bunun da 4904,2 hektarı bar verən bağlardır. Muxtar respublikanın iqlim şəraitinə uyğun, yüksək məhsuldarlığa malik aborigen meyvə-tərəvəz sortlarının bərpa və tətbiq olunması üçün elmi-tədqiqat işlərinin aparılması da diqqətdə saxlanılıb. Bu istiqamətdə "Araz" Elm-İstehsalat Birliyinin Ordubad dayaq məntəqəsində aparılmış tədqiqat işləri nəticəsində 372 meyvə sortunun genetik fondu toplanıb. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Görülən tədbirlər kənd təsərrüfatının inkişafına öz təsirini göstərib, muxtar respublikada 537 milyon manatdan artıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu, 2019-cu illə müqayisədə 4,6 faiz çoxdur.

Sonda məruzə ətrafında çıxışlar olub.



*2020-ci il 30 dekabr tarixdə keçirilmiş altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasından irəli gələn vəzifələrə dair Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində kollegiya iclası keçirilib.*

İclasda Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova məruzə ilə çıxış edərək bildirib ki, nazirlik tərəfindən yanvar-mart aylarında ənənəvi qaydada, aprel-dekabr aylarında isə pandemiya dövrünə uyğun xüsusi qaydalara ciddi riayət edilməklə onlayn mədəni tədbirlərin keçirilməsi diqqətdə saxlanılıb. Ötən il Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və tabeliyindəki mədəniyyət müəssisələri tərəfindən ötən ildə də xalqımızın milli dəyərlərinin yaşadılması, qorunması və təbliği, muxtar respublika əhalisinin mədəni tələbatının ödənilməsi istiqamətində konsert, müsabiqə, əlamətdar və tarixi günlərlə, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü, eləcə də tanınmış şəxsiyyətlərin yubileyləri ilə bağlı mədəni-kütləvi tədbirlər, kitab müzakirələri və təqdimatlar, dəyirmi masa və diskussiyalar təşkil edilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərur yallıları haqqında" 2018-ci il 24 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar "Yallılar dünəndən bu günə" kitabı ötən il işıq üzü görüb, yallılardan ibarət videodisk buraxılıb, Naxçıvan yallılarının çəkilişi aparılıb və sosial şəbəkələrdə yallı sənətinin təbliği ilə əlaqədar paylaşımlar edilib, adıçəkilən kitabın təqdimat mərasimi keçirilib. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında" 2020-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının icrası ilə əlaqədar 2020-ci ilin aprel ayında Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin solistlərinin iştirakı ilə tanınmış bəstəkarın əsərlərindən ibarət yeni konsert proqramının Naxçıvan Dövlət Televiziyası vasitəsilə videoçəkilişi həyata keçirilib. Ötən il "Məmməd Məmmədov – 100" adlı kitab nəşr edilib, bəstəkarın əsərlərindən ibarət DVD disk buraxılıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamının icrası ilə bağlı 3-ü onlayn açıq dərs olmaqla, ümumilikdə, 32 tədbir keçirilib. Ötən dövr ərzində nazirlik tərəfindən müxtəlif müsabiqələr, muzeylərdə 12 onlayn ekskursiya, gənclər üçün 5 açıq dərs keçilib, 3 mühazirə oxunub, ekskursiya təşkil edilib.

Vurğulanıb ki, ötən il ərzində muzeylərə 1462 yeni eksponat daxil olub. Bu dövrdə muxtar respublikadakı muzeyləri 122 min 577 nəfər tamaşaçı ziyarət edib. İl ərzində kitabxanalarda, ümumilikdə, 145 sərgi qurulub, 366 tədbir təşkil edilib. Yanvar-dekabr aylarında ənənəvi və onlayn qaydada olmaqla, ümumilikdə, 137 kitabın müzakirəsi keçirilib. Bundan başqa, muxtar respublikada fəaliyyət göstərən kitabxanalar tərəfindən fiziki imkanları məhdud insanlar da olmaqla, ümumilikdə, 1214 sakinə səyyar kitabxana xidməti göstərilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində 2020-ci ilin yekunları və 2021-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə Vətən müharibəsində canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Xidmətin rəisi, polkovnik Mirzə Cəlilov bildirib ki, hesabat ilində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti muxtar respublika ərazisində qeydiyyatda olan hərbi vəzifəlilərin və hərbi nəqliyyat vasitələrinin səfərbərlik ehtiyatlarına uyğun olaraq hərbi hissələrin komplektləşdirilməsi, 15 yaşı tamam olan kişi cinsli Azərbaycan Respublikası vətəndaşlarının yaşayış yeri üzrə ilkin hərbi qeydiyyata alınması, qeydiyyata götürülmüş vətəndaşların çağırışqabağı hazırlıq işlərinin təşkil edilməsi, onlarla sağlamlıq-profilaktik tədbirlərin görülməsi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətlə komplektləşdirilməsi, vətənpərvər, savadlı, xüsusi ixtisaslara yiyələnmiş gənclərin yetişdirilməsi məqsədilə silsilə tədbirlər həyata keçirilib.



Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 sentyabr tarixli "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" Sərəncamına və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 sentyabr tarixli Sərəncamının icrası barədə 2020-ci il 28 sentyabr tarixli Sərəncamına uyğun olaraq xidmət tərəfindən Əlahiddə Ümumqoşun Ordunun tələbatına əsasən hərbi vəzifəlilər ehtiyatdan çağırılaraq hissə və bölmələrin komplektləşdirilməsi məqsədilə aidiyyəti üzrə hərbi hissələrə göndərilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar hərbi xidmətdən tərxis olunan şəxslərin məşğulluğunun təmin edilməsi və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə xidmətin rayon (şəhər) idarə və şöbələrinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə hərbi xidmətdən tərxis olunmuş şəxslərlə Naxçıvan şəhər idarəsi və digər rayon şöbələrində tədbirlər keçirilib.

Diqqətə çatdırılıb ki, ümumtəhsil məktəblərində Gənclərin çağırışaqədərki hazırlığı fənninin keyfiyyətli keçirilməsi məqsədilə təsdiq olunan plan əsasında xidmətin rayon (şəhər) idarə və şöbələrinin zabitləri tərəfindən 126 tam orta məktəbdə yoxlamalar aparılıb. Şəhid ailələrinin, Qarabağ müharibəsi iştirakçılarının, müharibə veteranlarının iştirakı ilə şagirdlərlə vətənpərvərlik mövzusunda tədbirlər təşkil olunub.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində "2020-ci ilin yekunları və qarşıda duran vəzifələr" mövzusunda keçirilən kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin rəisi Ramin İsmayılov çıxış edərək ötən ilin nəticələrindən və qarşıda duran əsas vəzifələrdən danışıb. Bildirib ki, muxtar respublikada qaz təchizatının etibarlılığının, səmərəliliyinin artırılması məqsədilə ardıcıl tədbirlər görülüb. Belə ki, muxtar respublika üzrə təbii qaz istehlakçılarının 1 yanvar 2021-ci il tarixə ümumi sayı 91192 olub. Bunun 88434-ü əhali, 2758-i isə qeyri-əhali abonentdir.

Muxtar respublikanın şəhər və rayon ərazilərində ötən il daxil olan müraciətlərə əsasən cəmi 1691 ədəd mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb ki, bunun 1084-ü əhali abonent və 85-i qeyri-əhali abonentdir.

O da vurğulanıb ki, muxtar respublikada yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi, təbii fəlakət, sel, daşqın zamanı zərər çəkmiş qaz xətlərinin yenidən qurulması işlərinin görülməsi ilə əlaqədar olaraq istifadə edilən müxtəlif diametrli polietilen və dəmir boruların uzunluğu cəmi 156555 p/m olubdur ki, bundan 11817 p/m polietilen boru, 34704 p/m yerdəyişmə,110034 p/m dəmir borudur.

Həmçinin ötən il xidmətin smartkarttipli məişət qaz sayğaclarının "Servis" stansiyasında istismardan çıxarılan nasaz sayğaclar diaqnostik müayinə və kompüter vasitəsilə test edilərək ortaya çıxan nöqsanları aradan qaldırmaqla, 620 ədəd smartkarttipli elektron məişət qaz sayğacı plomblanaraq istismara yararlı vəziyyətə gətirilib.

Bəhs olunan dövrdə muxtar respublikada əhali qrupdan olan abonentlərin mexaniki qaz sayğaclarının kənar müdaxilələrdən qorunması üçün 626 ədəd mühafizə qutusu quraşdırılıb.

Məruzə ətrafında çıxışlar dinlənilib.

***Xəbərlər şöbəsi***

# "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələri (xəritələr)" kitabının təqdimatı keçirilib



*Yanvarın 12-si Naxçıvan Dövlət Texniki Kollecində "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələri (xəritələr)" kitabının təqdimatı keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov diyarımızda təhsilə göstərilən dövlət qayğısından danışaraq bildirib ki, hazırda muxtar respublikada 3 ali, 4 orta ixtisas, 212 orta, 5 peşə, 20 məktəbdənkənar təhsil müəssisələri, 8 Uşaq-Gənclər Şahmat, 8 Uşaq-Gənclər İdman, 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri, 22 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Ötən müddət ərzində muxtar respublikanın şəhər, rayon və kəndlərində 200-dən çox təhsil müəssisəsi, o cümlədən məktəbəqədər və məktəbdənkənar təhsil, peşə təhsili, musiqi məktəbləri, Heydər Əliyev adına Hərbi Lisey, ali və orta ixtisas təhsili müəssisələri üçün yeni tədris korpusları tikilib istifadəyə verilib.

Vurğulanıb ki, məktəblərimizdə tədrisin müasirləşdirilməsi diqqətdə saxlanılıb, təhsil müəssisələrində şagird, tələbə və müəllimlər üçün vahid geyim forması tətbiq edilib, qabaqcıl tədris metodlarının, o cümlədən STEAM təlim metodunun tətbiqinə başlanılıb. 2014-cü ildən interaktiv, 2015-ci ildən isə elm, ali və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəli müəllimləri tərəfindən ümumtəhsil məktəblərində nümunəvi dərslər keçirilməsinə start verilib, görmə və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün distant audio və elektron kitabxana yaradılıb.



Nazir bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən hazırlanan "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələri (xəritələr)" kitabı muxtar respublikanın təhsil potensialını tam əks etdirir. Kitab bir bələdçi rolunu oynamaqla, eyni zamanda təhsil müəssisələrinin mövcud vəziyyəti ilə də bağlı ilkin informasiya əldə olunması baxımından əhəmiyyətlidir. Məhz bu nəzərə alınaraq kitabın elektron versiyası Təhsil Nazirliyinin saytına da yerləşdirilib. Rəhman Məmmədov muxtar respublikada təhsilin inkişafına, göstərdiyi diqqət və qayğıya görə bütün təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə çıxış edərək bildirib ki, Ali Məclis Sədrinin tapşırığı ilə mühüm elmi, tədris və praktik əhəmiyyəti olan bir çox xəritə və atlaslar hazırlanaraq yüksək keyfiyyətlə çap edilib. Muxtar respublikanın təhsil müəssisələrinin xəritələri toplusu qiymətli informasiya mənbəyi olmaqla, kartoqrafik nəşrlərin zənginləşdirilməsinə xidmət edir. Xəritələr muxtar respublikanın ərazisi üzrə təhsil müəssisələrinin yerləşməsini və sıxlığını vizual olaraq nümayiş etdirir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə İnstitutunun direktoru Cəfər Əliyev çıxış edərək kitabın ərsəyə gəlməsi ilə bağlı görülən işlərdən danışıb.

Qeyd edək ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis şəkildə nəşr olunan kitab 7 bölmə, 63 səhifədən ibarətdir. Kitabda 15 xəritə, 163 fotoşəkil yerləşdirilib və muxtar respublikada fəaliyyət göstərən ali, orta ixtisas, orta, peşə və məktəbdənkənar təhsil müəssisələri, o cümlədən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri və məktəbəqədər təhsil müəssisələrinin adları, xəritə üzrə yerləşməsi və müasir görüntüləri yer alıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanşünaslıq elmi xəzinəsinə ən dəyərli töhfə – "Naxçıvan blokadası"



*Zamanın özü haqqında monoloq*

Jurnalistikanı çətin sənət adlandırırlar. Həm də ona görə ki, bu sənət ZAMANIN ÖZÜ HAQQINDA MONOLOQDUR. Yaşadığın dövrün salnaməsini olduğu kimi yaratmaq jurnalist üçün çox çətin və məsuliyyətlidir. Gecə-gündüz çalışıb faktların dəqiqliyinə varmaq, bütün həqiqətləri olduğu kimi, sənədlərin dili ilə oxucuya çatdırmaq qədər bir yükü öz üzərinə götürən hər bir jurnalist alqışlanmalıdır. Yaşananların bilavasitə iştirakçısı olmaq isə bu halda ən yaxşı vasitədir. Qarşımda üz qabığı iki – qırmızı və qara rənglər ilə diqqətçəkən, ağrımızın, acımızın, həyəcanımızın sığındığı o iki kəlmə – "Naxçıvan blokadası" kitabının rəngləri də, sanki öz sözünü deyir. QARA – Naxçıvanın keçən əsrin əvvəllərində keçirdiyi ciddi sarsıntıların rəngidir… QIRMIZI isə xoşbəxtliyi təmsil edir. O rəng ki bu gün torpaqlarımızda qürurla dalğalanan Azərbaycan bayrağının üzərindən ətrafa işıq saçır. Qarabağda Vətən olan, torpaqlaşan Naxçıvan igidlərinin qırmızı qanı. Və al-qırmızı rənglərdən boylanan, bu gün könülləri fəth edən, xoşbəxtliyə qovuşan elobamız, yurdumuz Naxçıvan…

Müəllifi Azərbaycan Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədovanın olduğu "Naxçıvan blokadası" ikicildlik kitab son dövrlərin ən ciddi tədqiqat əsəri kimi hər bir alim, tarixçi, sıravi vətəndaşın oxumalı olduğu çox qiymətli tarixi mənbədir. Ciddi araşdırmaların məhsulu olan yeni nəşr blokada Naxçıvanının ağır yükünü çiyinlərinə götürərək ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanla bağlı arzularını reallığa çevirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikaya rəhbərliyinin 25 illiyinə həsr olunub. Bu baxımdan kitabın dəyəri ölçüyəgəlməzdir. 1990-1995-ci illərdə Naxçıvanın siyasi sahələrinə dair materialların, statistik göstəricilərin öz əksini tapdığı bu nəşr muxtar respublikanın elmi, ictimai və mədəni həyatına ən böyük töhfədir.

*"Blokada" və "intibah"*

2005-2015-ci illərdə "Şərq qapısı" qəzetində fəaliyyət göstərdiyim vaxtlarda Mətanət xanımın yazılarını böyük maraqla oxuyub və hər yeni yazısını səbirsizliklə gözləmişəm. Elə indi də. Çünki onun qələmə aldığı yazıların heç biri məqalə xətrinə yazılmayıb, hər bir yazı ürəyindən od alıb. Hər bir qələm sahibinin öz duyğuları, düşüncələri, tərənnüm və təsvir üslubu, təfəkkürü, sözə fərdi münasibəti var. Və yazılarının əsas xətti daha çox Naxçıvanın üzləşdiyi BLOKADAnın yaratdığı çətinliklər və məntiqi cəhətdən bu çətinliklərin hər bir naxçıvanlının həyatına göstərdiyi təsir idi. Etiraf etməliyəm ki, bir gənc jurnalist kimi mən də həmişə o yazılardan bəhrələnmişəm. Öyrənmişəm ki, "blokada" və "intibah" sözlərinin muxtar respublikanın hərtərəfli inkişafını ifadə edən cümlələrdə necə işlədilməsi dünya tarixində tək Naxçıvanda mümkün olub. Açıq etiraf etmək lazımdır ki, nəinki Naxçıvanda, ümumiyyətlə, Azərbaycanda Naxçıvan blokadasına ən çox müraciət edən jurnalist Mətanət Məmmədovadır...

*Bugünkü gənclərimiz Naxçıvanın həmişə belə gözəl, abad olduğunu zənn edirlər*

2020-ci il Azərbaycan tarixinə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bitməsi, azərbaycanlıların QƏLƏBƏsi ilə yazıldı. Bu qələbə ilə Naxçıvanın paytaxtla və ölkənin digər rayonları ilə əlaqəsi üçün dəmir yolunun, nəqliyyat yolunun açılması ilə nəticələnəcək. Yəni 30 ilədək blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında yaxın gələcəkdə bu yol bərpa olunacaqdır. Bu əlamətdar hadisə hamımız üçün tarixi bayram və hər birimizin böyük sevincinə səbəb oldu. Əsas da Vətəndən ayrı düşən naxçıvanlıların. Minlərlə soydaşımız Naxçıvanın blokadadan çıxacağı günü səbirsizliklə gözləyir. Elə həmin günlərdə Mətanət xanımın bu kitabının işıq üzü görməsi məni də ötən 30 ilə bir daha nəzər yetirməyə sövq elədi. Bəli, blokadada olan Naxçıvan hansı günlərdən keçib gəlib? Mətanət xanımın da qeyd etdiyi kimi, bugünkü gənclərimiz Naxçıvanın həmişə belə gözəl, abad olduğunu zənn edirlər. Lakin biz 1988-ci il və 1990-cı illərin ən ağır günlərindən bu dövrə gəlib çıxmışıq. Bütün bunlar yaşanmış tarixdir. NAXÇIVAN BLOKADASI insanlara nələr veribdir, nələri alıbdır? Gənclərimiz bilməlidirlər ki, dünyada Naxçıvan kimi, bəlkə də, heç bir yer bu qədər uzun bir dövrdə blokada şəraitində yaşamayıb və blokadada ola-ola belə inkişaf etməyib. "Naxçıvan blokadası" ikicildlik kitab məhz bunları öyrənmək baxımından, yuxarıda da qeyd etdiyim kimi, olduqca dəyərli tədqiqat əsəridir, həmin illərin ensiklopediyasıdır. Müəllif Naxçıvan Dövlət Arxivində və "Şərq qapısı" qəzetinin arxivində, muzeylərdə araşdırmalar aparıb, muxtar respublikada yaşayan, həmçinin mərkəzdə fəaliyyət göstərən bir çox ziyalılarla söhbətlər edib. Yuxusuz gecələrin, saatlarla kompüterin klaviaturası qarşısında, saralmış qəzet vərəqlərinin içərisində yorulmayıb, usanmayıb.

*Blokada qatarı, yaxud Mehridən Naxçıvana son yolçuluq...*

Bu kitab oxucuda roman təəssüratı yaradır, – desək yanılmarıq. 1991-ci ilin noyabr ayında Bakıdan Naxçıvana yola düşən qatarda Murad adlı gənc "Meğri, Meğri", – deyə səslənir. Bunu qəbul etməyən tarixçi alim Fəxrəddin müəllimin dili ilə müəllif Naxçıvan tarixinin əsl həqiqətlərini bədii-publisistik şəkildə oxuculara çatdırır. Fəxrəddin müəllim üzünü o gəncə tutaraq: "Bax, beləcə, Mehrini elədilər Meğri. Bu qatar yolu Bakıdan Naxçıvanadək əzəli Azərbaycan torpaqlarıdır. Siz də gözünüzü açıb qatarınızın "Ermənistandan" keçdiyini görmüsünüz. Amma elə deyil, övlad, elə deyil".

Həmin qatarda sərnişinlərə qarşı törədilən təxribatlar, qatarların 3 gün Mehridə saxlanmasını, daha sonra Naxçıvanda təməli yenicə qoyulan Milli Ordumuzun hərbçilərinin vertolyotla nigaran qalan insanları Naxçıvana aparılmasını oxuduqca vətəndaşlarımızın keçirdiyi sarsıntıları duymaq çətin deyil.Və o yolçuluğun Mehridən Naxçıvana son yolçuluq olduğunu bilmək isə daha ağrılı və acıdır. Öz yolumuzla, öz torpağımızla ölkəmizdən necə təcrid olunduğumuzu ürəkağrısı ilə oxuyuruq.

*Neft lampasının işığında qəbul olunan və bugünkü həyatımıza hesablanmış dövlət sənədləri*

Mətanət xanımın topladığı yazılarda yavaş-yavaş qatarların necə dayandığını, Naxçıvanın düşdüyü ağır vəziyyətlə tanış oluruq. Həmin ağır günlərdə Naxçıvanı yalnız bir nəfər qoruya bilərdi – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev. "Ümummilli lider və Naxçıvan blokadası" bölməsini oxuduqca blokadaya salınan Naxçıvanın ulu öndər tərəfindən necə qorunmasının bir daha şahidi olursan. 1990-1995-ci illərdə müəllifin tədqiq etdiyi "Şərq qapısı" qəzetinin ulu öndərin iki ilədək Naxçıvan fəaliyyəti dövrün ən sanballı mənbəsidir. Bir yerə toplanan bu materiallar bu gün də, sabah da, 100 il bundan sonra da Naxçıvan blokadasının tarixini öyrənmək üçün gənclərimizə ən dəyərli mənbədir. Ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi vaxt Naxçıvanı qurub-tikməkdən əvvəl onu düşmən niyyətlərindən qorumaq barədə düşünürdü. Kitabda toplanılan materialları oxuduqca bir daha aydın olur ki, dahi rəhbər Naxçıvan Muxtar Respublikasını Azərbaycan dövlətinin tərkibində qoruyub saxlamağa və daha da möhkəmləndirməyə ümummilli vəzifə kimi yanaşır, məsələyə geniş mənada respublikamızın ərazi bütövlüyünün təmin edilməsinin tərkib hissəsi müstəvisindən baxırdı. Bu, həmin vaxtlar idi ki, Qarabağımızın kəndləri erməni tərəfindən ardıcıl işğal olunurdu. Ermənistanla əhatə olunmuş Naxçıvanın ərazi bütövlüyünün qorunması, sərhədlərinin keçilməzliyinin təmin edilməsi ümumrespublika səviyyəli böyük və ciddi dövlət işi idi. Kitabda Naxçıvan ərazisini işğaldan, əhalini məhv olmaqdan qorumaq üçün ulu öndər tərəfindən həyata keçirilən tədbirlər, görkəmli dövlət xadiminin yeritdiyi uğurlu xarici siyasət sənədlərin, fotoların dili ilə oxucuya çatdırılır.

Aydın olur ki, bütün naxçıvanlılar dahi şəxsiyyətin ətrafında sıx birləşmişdi. Çünki o, öz mərhəmət, cəsarət və məhəbbət nuruyla ürəklərə nur verirdi. Hamını inandıra bilirdi ki, sabah var və o daha gözəl sabah olacaq. Onun oturduğu otağın pəncərəsindən gecəyarısı keçənədək görünən işıq bütün məmləkətin üzərinə yayılırdı. Kitabda da elə o neft lampasının işığında qəbul olunan dövlət sənədləri bugünkü həyatımıza hesablanmışdı.

*"Ərik ağacı"nı kəsməyə qıymayan Həsən əminin hayqırtısı, naxçıvanlıların sərt qışla mübarizəsi*

Kitabın ən təsirli hissələrindən biri mənim üçün "Ərik ağacı"dır. Bu hissəni dəfələrlə oxudum. Kövrəldim. Bir fikir yadıma düşdü. "Deyirlər, insan özü özünü yazır. Amma yazdıqlarında başqası da özünü tapmalıdır. Sənin yazdıqlarında heç olmazsa, on adam özünü tapa bilmirsə, deməli, sən də heç özünü yaza bilmirsən". Məhz Mətanət xanımın bu kitabını oxuyan hər bir naxçıvanlı burada özünü tapacaqdır. Həsən əminin evlərini qızdırmaq üçün kəsməyə qıymadığı o ərik ağacı onun ürəyini göynədən yüzlərlə naxçıvanlının hayqırtısı idi. Ulu öndər sabaha ümidlə baxaraq deyirdi: ***"Düzdür, kəsilən hər ağacı görəndə elə bilirəm ki, qolumu kəsiblər. Biz kəsilənlərin yerini dolduracağıq".*** Bəli, əziz naxçıvanlı gənclər, yaşıllığa bürünən məmləkətimizdə boyverən ağaclar o kəsilən ağacların yerinə əkilən fidanlardır. İndi siz istisi, qazı olan rahat evlərdə yaşayırsınız, əlinizdə mobil telefonlarla dünyanın hər yeri ilə əlaqə qurursunuz, xoş günlərin işığında yaşa dolursunuz. Hətta bu günlərdə qışın sərt keçməsi ilə möhtəşəm təbiət donunu geyinən Naxçıvanın ən gözəl mənzərələrini sosial şəbəkələrdə qürurla paylaşırsınız. Amma Naxçıvan belə deyildi. Bilməlisiniz ki, o zamanlar Naxçıvan şəhərinin, sadəcə, quruca adı var idi. Şükür ki, kəskin şaxtası, çovğunu ilə seçilən sərt qışa odun, kömür tədarük etmək, yaxud suvaqlı damların qarını təmizləmək dərdini görmədiniz. Ona görə oxuyun bu kitabı. Oxuyun, görün ki, qarı yarıb yerimək olmurdu. Kimi inandıra bilərsən ki, dam örtüklərindən sallanan salxım buzlar pəncərələrin başınadək enirdi? Görənlər bilir, həyat donurdu. Əlini qapının dəstəyinə atanda yapışıb qalırdı orada. Bütün məhəllələrin suyu donurdu. Çünki sosializm cəmiyyətinin "xoş vədləri" kommunizm "eyforiyasında" ilişib qalmışdı. Yaddan çıxmışdı ki, yaşayış məntəqələrinə, hər bir evə, mənzilə su çəkmək, davamlı su vermək lazımdır. İndiki kimi 24 saat dayanmadan axan suyumuz yoxdu. Ya su xətti olan binada su tapmırdıq, ya da plansız çəkildiyi üçün tapanda da şaxta vurub dondururdu, qalırdıq vedrələrin ümidinə. Çarəsiz insanlar kilometrlərlə uzaq məsafələrdəki bulaqlardan arabalarla evlərə su daşıyırdılar. Nə qədər su daşınmalıydı, bilirsinizmi? Vedrələrlə... Lakin yenə də yetmirdi.

*Blokada uşaqlığı...*

Bəli, əziz naxçıvanlı gənclər, o vaxtın uşaqları sizin kimi müasir bağçalarda tərbiyə almadı, müasir məktəblərdə oxumadı. "Naxçıvan blokadası" kitabından oxuyacaqsınız ki, blokada uşaqları lampa işığına göz açıb, qaranlıq otaqların, şəraitsiz evlərin, iki saatdan bir yanan işıqların yarımçıq qoyduğu cizgi filmlərinin psixologiyalarına zərbələr endirdiyi ən dəyərli əşyası hesab edənlərdi onlar... Boyları çörək köşklərinə çatmayan, yaşlı adamların ayaqlarına dolaşan, lakin məcburi şəkildə saatları zamana yükləyənlər idi o uşaqlar. Meyvə – alma, armud, portağal, nar həvəsləri gözlərində qalan, şirniyyata, konfetə, şirin çaya aylarla həsrət, aylarla yox, illərlə həsrət uşaqlar. Yol-izini ot-alaf basan, payızın ayazında, qışın şaxtasında, yazın yağmurunda şagirdlərin 5-6 kilometrlik yol gedib-gəlmək əziyyətinə qatlaşan uşaqlar.

Kitabı oxuduqca gah üşüyürsən, sanki qaranlıq bir otaqda o günlərə qayıdırsan. Gözlərinin önündə Naxçıvanın uçuq-sökük, alçaq möhrə divarları arasında keçən, toz-torpaqlı, yaxud palçıqlı dar küçələri canlanır.

*Qarabağda qazanılan QƏLƏBƏ Kərkiyə qədər çatacaq*

"Blokada və Sədərək" bölməsini həyəcansız oxumaq mümkün deyil. Dəyərli müəllimim Vaqif Məmmədovun "Sədərək gündəliyi"nin kitaba salınması da alqışlanmalıdır. 1990-1993-cü illərdə Sədərək rayonuna erməni hücumlarının xronoloji ardıcıllıqla verilməsi bu bölmənin dəyərini bir qədər də artırıb. Və hücumlar nəticəsində sərhəd bölgəmizdə nə qədər ev, məktəb, istehsal müəssisəsi dağıdılıb, Sədərəyə külli miqdarda ziyan dəyib. Bu ziyan təkcə maddi ziyan deyildi. O günlərdə neçə-neçə insanın – körpənin, qadının, qocanın ömrünə son qoyuldu, buranı qorumaq üçün ölkəmizin müxtəlif bölgələrindən könüllülər gəldilər, sədərəklilərlə birlikdə silaha sarıldılar. Qocaları, qadın və uşaqları nisbətən təhlükəsiz yerlərdə qorudular. İgidlərimiz mənfur düşməni Sədərəyə girməyə qoymadı, sərhəd bölgəsinin







qəhrəmanlıq tarixinin daha bir səhifəsi belə yazıldı. İndi 90-cı illərin rüzgarı artıq bu torpağın üstündən əsə bilməz. Sədərəyi dövrələyən o məğrur dağların başında Qələbə qazanan müzəffər Ordumuzun məğrur əsgərləri keşik çəkir. Bugünkü Sədərək düşmənə gözdağıdırsa, dağlarda məskən salan igidlərimiz yarılmaz səddir. O sədd Kərkiyəcən uzanacaq. Çünki tarix həqiqətin tərəfindədir. Necə ki biz Qarabağda Qələbə qazandıq, bu qələbə Kərkiyə qədər çatacaq.

*Son 25 ildə yetişən Naxçıvan gəncliyinin qibləsi Vətən bayrağı, mehrabı Vətən sərhədləri oldu*

Sonra oxuduğum bölmələrdə Şərurda xına gecəsində Mətanət xanım onun qohumu ilə ailə quran Muradı yenidən görür. Həmin o blokada qatarında olan gənci. Blokada qatarı, blokada toyu və üçüncü görüş. Müəllifin Muradla sonuncu görüşü İkinci Qarabağ müharibəsində şəhid olan Lətifin məzarı başında olur. İlahi, zaman insana neləri göstərir. Qarabağda tarix yazan Naxçıvan igidlərindən biri oldu Lətif...

Kitabın birinci cildinin son səhifələrində müəllifin Naxçıvan şəhidlərinə yer ayırması və qürur dolu cümlələr insana fəxarət hissi yaşadır. Ali Baş Komandanın Naxçıvanın igidlərinin adını xüsusilə vurğulamağı əbəs deyil. Naxçıvan da Qarabağ kimi bəxti qara olub. Birinci Qarabağ müharibəsində mülki camaat birtəhər döyüş bölgələrindən canlarını qurtara bilib Azərbaycanın digər bölgələrinə sığındı. Naxçıvan isə Vətəndən ayrı düşdü. Biz naxçıvanlılar isə çətinliklərə sinə gərdik. Qibləmiz Vətən bayrağına, mehrabımız Vətən sərhədlərinə oldu. Aprel və Günnüt zəfərlərindən başlanan qayıdışın davamı Qarabağda Azərbaycan Ordusunun qələbəsiylə nəticələndi. Naxçıvanın Qızılqayasında dalğalanan Azərbaycan bayrağı indi Qarabağda dalğalanır. Sevincliyik, qürurluyuq. Naxçıvan igidləri də öz layiqli qiymətlərini cənab Prezident tərəfindən aldılar. Blokadada olan məmləkəti göz bəbəkləri kimi qoruyan o igidlər Qarabağ döyüşlərinə qürurla yollanmışdılar. Şəhid oldular, qazi oldular. Son nəfəslərinə qədər vuruşdular. Bu, son 25 ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvanda böyük diqqət və qayğısı nəticəsində yetişən yeni nəsil vətənpərvər gəncliyin tarix yazmaq ucalığıdır. Cənab Sədr Vətən müharibəsinin şəhidlərini qəhrəman kimi qarşıladı. Bütün naxçıvanlılar şəhidlərimizi öz doğma övladları kimi bağrına basdı. Dövlət-xalq-ordu birliyi məhz budur. Qarabağı bizə qaytaran da bizim bu birliyimiz və şəhid ola bilmək bacarığımızdır.

*Gerçəkləşən arzular və ya yenidən qurulan NAXÇIVAN*

Fikrimcə, kitabda iki dövrün mənzərəsi ustalıqla yaradılıb. Naxçıvanın ən yeni tarixinin iki mühüm mərhələsi tarixboyu yazılacaq. Birincisi, ULU ÖNDƏR tərəfindən QORUNAN NAXÇIVAN. 1990-cı illərdə erməni işğalından xilas edilmiş Naxçıvan ümummilli liderimiz Heydər Əliyevin müstəqil Azərbaycana ən böyük töhfələrindən biri kimi tarixə yazıldı. İkincisi isə müdrik siyasətçi Naxçıvanı cənab Vasif Talıbova əmanət etməklə Naxçıvanın ən yeni tarixi yazıldı: Yenidən QURULAN NAXÇIVAN. Həmin tarix ki bu zaman kəsiyi Naxçıvan Muxtar Respublikasında

*Ardı 4-cü səhifədə*

hərtərəfli inkişafın yeni yüksəliş dövrü, yaxud da çətin blokada şəraitində intibah yaratmağın mümkünlüyünün isbat mərhələsi, çox doğru olaraq dövlət idarəçiliyinin Naxçıvan modelinin formalaşdırılması illəri kimi xarakterizə edilir. Ümummilli lider 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Naxçıvanda yaranan boşluq 1995-ci ilin dekabr ayının 15-dək sürdü. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilən cənab Vasif Talıbovun ilk sözü belə oldu: ***“Mənim özümün heç bir platformam yoxdur. Mən işlədiyim müddətdə ancaq Heydər Əliyev yolu ilə gedərək, onun Naxçıvanda gerçəkləşdirmək istədiyi arzularını yerinə yetirəcəyəm”***.

Bəli, həmin gündən indiyədək naxçıvanlılar bir ocağın başına yığışdı. Sönməyən, istisiylə bir ucu Sədərəkdən tutmuş bir ucu Ordubad qədər bütün məmləkəti isidir. İndi burada hamı çəkici zindanın eyni nöqtəsinə döyür. Ona görə də onun sözü kəsərli, özü təravətlidir. Kitabda da qeyd edildiyi kimi coğrafi ərazisinə görə də, düşdüyü vəziyyətə görə də ağır şəraitdə olan Naxçıvan cənab Vasif Talıbovun gəncliyinin potensialı, ulu öndərdən mənfəətləndiyi siyasi qabiliyyəti ilə o ağır günləri ilbəil arxada qoydu. O illər ki hər insan o ağır yükü çiyinlərinə götürməyə özündə güc tapa bilməzdi. Lakin tarixdə o insanlar böyük şəxsiyyətlərə çevrilirlər ki, məhz belə ağır vəziyyətlərdə vəzifələrinin öhdəsindən layiqincə gələ bilirlər, 35 yaşda öz güclərindən dəfələrlə artıq yükü qaldırmağı bacarır, gənc olsalar da, bir məmləkətin ağsaqqalı ola bilirlər. Belə insanlar tarix yazan insanlardır. Tarixi yazanları isə tarixin özü yaşadır. Ötən 25 illik müddət isə dahi şəxsiyyətin seçiminin nə qədər düzgün olduğu Naxçıvanda görülən işlər, yaradılan ictimai-siyasi sabitlik, xalqa olan bağlılıq, dövlətə və Heydər Əliyev ideyalarına sədaqətin bariz nümunəsidir. Bu, Heydər Əliyev yolunun davamıdır. Naxçıvan bu yolla irəliləyərək qələbə qazanır, yaşayır, idarə olunur, inkişaf edir. Nə qədər Azərbaycan var, bu yol da heç zaman bitməyəcək.

### *Biz sehrli çubuğa malik deyilik, biz yalnız zəhmətkeş və doğma evimiz olan Naxçıvanı sevən insanlarıq*

Kitabın ikinci cildində 1995-2020-ci illərin nailiyyətləri statistik rəqəmlərlə oxucuya çatdırılır. Bütün rəqəmlərin arxasında isə gərgin siyasi fəaliyyət dayanır. Bu illərdə Naxçıvan kərpic-kərpic, kənd-kənd, qəsəbə-qəsəbə, şəhər-şəhər tikildi. Bu gün muxtar respublikanın ən ucqar kəndlərində müasir məktəb binaları, rabitə qovşaqları, səhiyyə məntəqələri fəaliyyət göstərir. Abad yollar, yaraşıqlı və dayanıqlı körpülər, yolüstü bulaq-abidələr... Bir müddət əvvəl isə təbii qaz haqqında belə düşünmək, fasiləsiz enerjiyə sahib ola bilmək biz naxçıvanlıların, bəlkə də, heç ağlına gəlmirdi. Amma indi!.. Fikir və düşüncəmizdən uzaq düşən xəyallar artıq gerçəkləşib. Naxçıvandan tutmuş ən ucqarlaradək hər yerdə təbii qaz şölələnir, elektrik işıqları bərq vurur. Bu gün könülləri fəth edən Naxçıvan göz bəbəyi kimi qorunur. Bütün bunlar Vətən yanğısı və sevgisiylə həyata keçirilir. Ali Məclis Sədrinin dediyi kimi: ***“Biz sehrli çubuğa malik deyilik, biz yalnız zəhmətkeş və doğma evimiz olan Naxçıvanı sevən insanlarıq”.*** Bütün bunlar həqiqətdir, reallıqdır, gerçəklikdir. Bəli, məqsədyönlü rəhbərliyin, doğma diyarımızın hər bir guşəsinə sonsuz məhəbbətdən yaranan səmərəli dövlətçilik fəaliyyətinin nəticəsidir ki, Naxçıvan inkişafının ən zirvə nöqtəsindədir. Bu məmləkətin bir qibləsi var və hamı ona inanır. Naxçıvanda qibtə və qürur hissi keçirdiklərimiz məsələnin bir tərəfidir. Görünməyən nədir bəs? Bu suala müəllif özü çox dəqiq cavab verməklə naxçıvanlıların əqidəsini ortaya qoyur: Dövlətçiliyə inam və rəhbərə sonsuz sevgi, sədaqət!

Bu gün Naxçıvan Heydər Əliyev dağının əlçatmaz zirvələrinə aparan yollarda, yoxuşlarda, dolaylarda inamla, əzmlə, fədakarlıqla irəliləyən Ali Baş Komandanımız cənab İlham Əliyevin ən böyük dəstəkçisidir. Cənab Prezidentin muxtar respublikaya səfərləri zamanı Naxçıvanda görülən işləri yüksək dəyərləndirməsi sevincimizə sevinc, qürurumuza qürur qatır. Çıxışların birində ölkə başçısının, xüsusilə vurğulayaraq dediyi bu fikirləri bir daha xatırlatmaq yerinə düşər: ***“...Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır”.***

Bəli, hər il Naxçıvanın uğurlarına yeni uğurlar əlavə olunur. Bu uğurlardır ki, jurnalist Mətanət Məmmədova kitabında Naxçıvanın dünənini bu günü ilə müqayisə edərək bütün sahələrdə qazanılan nailiyyətlərin statistik rəqəmlərlə mükəmməl şərhini verir.

### *Son söz yerinə...*

*Açığını deyim, ikicildlik kitabın təhlili bir qəzet məqaləsinə sığmaz. 30 illik blokadanın salnaməsinə çevrilən bu kitab haqqında hələ çox deyiləcək, çox yazılacaqdır. Çünki bu kitab Naxçıvan blokadasının ensiklopediyasıdır. Ancaq bu ensiklopediya təkcə quru rəqəmlərdən, sərəncam və fərmanlardan ibarət deyil. Müəllif o dövrdə yaşanmışları da oxuculara yaşadır. Həmçinin yaşadığı dövrün nəbzini və xarakterini tutmağı bacaran jurnalist Mətanət Məmmədova həm də bu günün yazarlarına bir cığır açıb. Özünün də qeyd etdiyi kimi, jurnalistlərimizə bir o qalır ki, ikinci cilddən materialları seçib bu günlə müqayisə edərək yazılar hazırlasınlar. Naxçıvanın bu günü haqqında kitabların yolunu səbirsizliklə gözləyirik...*

**Sara ƏZİMOVA,**
***jurnalist***





# Bəyaz donlu, ağ günlü Ağbulağın nağılı

## *(Reportaj)*

*Şahbuz şəhərindən burulub gedən yol bizi Ağbulaq kəndinə aparır. Qış özü ilə gətirdiyi gözəllikləri buradakı daşlara, dağlara, ağaclara bağışlamaqda heç xəsislik eləməyib. Bu mənzərə bəzən adamı qarışıq duyğularla baş-başa qoyur, bəzənsə, bu gözəlliklərin fonunda səssiz-səmirsiz yolu seyr etməyə vadar edir.*

Qarlı dağların arxasından boylanan Günəş şirin yuxudan yeni oyanan, yeni günün sevincini yaşayan kəndə daha bir gözəl mənzərə bağışlayır. Yolumuz hündürlüyə doğru olduğundan Günəş, elə bil ki, daha yaxından görünməyə başlayır, dağların qoynundakı qar daha parlaq gözə çarpır. Təbiət öz gözəllikləri sarıdan muxtar respublikamıza səxavətlə yanaşıb: əvəzi olmayan yeraltı, yerüstü sərvətlər, relyefinin rəngarəngliyi, flora və faunasının zənginliyi. Müqayisəolunmazdır bunlar.

Naxçıvanda turizm sahəsi hər ötən il daha da inkişaf edir. Artıq bir neçə ildir, qış turizminin inkişafı vətəndaşların asudə vaxtlarının səmərəli təşkil olunmasına, onların istirahətinin təmin edilməsinə zəmin yaradıb. Ağbulaq İstirahət Kompleksi də bu işlərin tərkib hissəsidir.

Təbiətin turistlərə sürprizi ilə dolu olan kompleksə, demək olar ki, hər gün yüzlərlə insan üz tutur. Buranın ab-havası, yaradılan şərait insan ruhunu bircə anda öz təsiri altına alır. Əslində, təzadların vəhdətidir buralar, desək, yəqin ki, yanılmarıq. Ağ buludlarla naxışlanmış səma, Günəşin dağların üstündən boylanması, havanın temperaturunun isti olması, hər yerin ağ örpəyə bürünməsi... Təbiət, sanki bunlardan xəbərsizdir, ya da öz gözəlliyindən buralara pay verməkdə zərrə qədər də olsa, “paxıllıq” etməyib.

Ağbulaq kəndinin təmiz havası, saf suyu, əlverişli iqlim şəraiti burada turizmin inkişafı üçün böyük imkanlar açıb. Məhz bu cür təbii gözəlliklər nəzərə alınaraq kənddə turizm və istirahət kompleksinin yaradılmasına başlanılıb. 2013-cü ildən fəaliyyət göstərən kompleks qapılarını qonaqların üzünə açdığı elə ilk günlərdən turistlərin böyük marağına səbəb olub. Burada ümumi tutumu 76 nəfər olan 38 otaq, 3 restoran, 3 kottec inşa olunub. Otaqlar peyk yayımlı TV, daxili xətli telefon, minibar, kassa, vanna otağı (duş, duş kabinəsi) və sairlə təchiz edilib. Bundan başqa, minifutbol-voleybol meydançası, uşaqlar üçün əyləncə parkı, market, valyuta məntəqəsi, poçt xidməti və başqa xidmətlər də mövcuddur.

Ağbulaq Xizək Mərkəzi isə qışda turistlərin ən çox axın etdiyi məkandır. Dağ xizəkçiliyi üçün əlverişli məkana çevrilən Ağbulaqda pistin uzunluğu 1590, eni isə 20-35 metrdir. 980 metr uzunluğu olan kanat isə mərkəzə ayrıca gözəllik verir. İnsanların rahatlığı üçün mərkəzdə uzunluqları 134, 67 və 17 metr olan bandlar quraşdırılıb.

Mərkəzdə müşahidələrimiz zamanı aydın oldu ki, həftəsonları bura daha çox təşrif buyuranlar gənc və uşaqlar olur. Kompleksin ərazisində 2 kafe yerləşir ki, bunlardan biri kanatın son nöqtəsində fəaliyyət göstərir.

İnsanların istirahəti üçün bura ən ideal məkandır: istər öz gözəlliyinə, istərsə də qiymətlərinə görə. İstirahət mərkəzində xizək sürmək üçün lazım olan bütün avadanlıq və geyimlərin satıldığı mağaza fəaliyyət göstərir. Bu kompleksdə heç vaxt xizək və snoubord sürməyənlər üçün xizək məktəbi də mövcuddur. Müəllimlər tərəfindən keçirilən dərslərin qiymətləri də çox uyğundur. Dərslərdə iştirak edənlərin sayları artdıqca, qiymət daha da ucuzlaşır.

Xizək mərkəzində xizək avadanlıqları və ləvazimat qiymətlərinə gəlincə, burada ən uyğun qiymətlər seçilib. Snoubordan istifadə etmək istəyənlər snoubord, ayaqqabı və dəbilqə dəsti, xizək sürmək istəyənlər isə xizək çubuğu, ayaqqabı və dəbilqədən ibarət olan xizək dəstini buradan sərfəli qiymətə əldə edə bilərlər. Mərkəzdən istifadə edənlər buradan dəstləri almaya da bilərlər. Yalnız xizək və snoubordun kirayəsi də kifayətdir.

Qış turizm mövsümünə “Həyəcanı hiss et, dağlara meydan oxu!” devizi ilə başlayan xizək mərkəzində uşaq və böyüklər üçün kirşələrin istifadə qiyməti heç də bahalı deyil.Qar motorlarının həvəskarları münasib qiymətə bu həyəcanın ən pik nöqtəsini yaşaya bilərlər.

Ağbulaq Xizək Mərkəzində mikroavtobusla təşkil edilən turların da şahidi olduq. Öyrəndik ki, bu turlarda insanların istirahəti üçün hər bir imkan yaradılır.

Turizm kompleksi yeni istifadəyə verildiyindən buraya gələnlərin əksəriyyətinin məlumatlandırılmasına ehtiyac yaranır. Bu problemi həll etmək üçün girişdə informasiya lövhəsi asılıb. Eyni zamanda bura gələnlərə əlavə olaraq təhlükəsizlik barədə məlumat verilir. Xizək mərkəzində yarana biləcək hər hansı təhlükənin qarşısının alınması məqsədilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin iki əməkdaşı daim mərkəzdə olur.









Göründüyü kimi, muxtar respublikamızda turizm siyasəti kompleks xarakter daşıyır. Bu sektorda xidmət səviyyəsinin get-gedə yüksəlməsi, həyata keçirilən davamlı tədbirlər turizmin bütün sahələrində mühüm nailiyyətlər qazanılmasına imkan yaradacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişafı ilə bağlı keçirilən müşavirədə verilən tapşırıqların uğurlu icrası hazırda turizmin inkişafında əhəmiyyətli dönüş yaratmaqdadır. Bu sahəyə diqqət və qayğı göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“Müasir dünyada turizm sektoru iqtisadi cəhətdən ən gəlirli və perspektivli sahələrdən biridir. Zəngin mədəni-tarixi irsə və əlverişli şəraitə malik olan Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı üçün geniş imkanlar mövcuddur. Hazırda muxtar respublikada iqtisadi-sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür”.***

*Bu gün Naxçıvanda turizm sektorunun inkişafı keyfiyyət və kəmiyyət baxımından yeni mərhələyə qədəm qoyub. Yeni infrastrukturun yaradılması, xidmət səviyyəsinin yüksəldilməsi ilə yanaşı, diyarımızda keçirilən beynəlxalq tədbirlərin və idman yarışlarının da xüsusi payı göz önündədir.*

✍ **Ceyhun MƏMMƏDOV**


### *Bildiriş*

“İdeal-75” Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdirilərək “Aypara Elektrik” MMC-yə çevrilmişdir.

### *İtmişdir*

İsmayılov İlqar Əli oğlunun adına olan əmək kitabçası itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ceyhun Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 29